# LUKOİL OVERSEAS: ŞAH DƏNİZ QAZ-KONDENSAT YATAĞININ İNKİŞAFI. II

| | |
|---|---|
| **Ölkə:** | Azərbaycan |
| **Layihənin nömrəsi:** | 45599 |
| **Biznes sahəsi:** | Təbii sərvətlər |
| **Dövlət/Özəl:** | Özəl |
| **Environmental category:** | |
| **İdarə Heyətinində baxılma tarixi:** | 15 yanvar 2014 |
| **Status:** | İmzalanıb |
| **LXS-nin açıqlanması:** | 8 noyabr 2013 |

## Layihənin Təsviri

Təklif olunan maliyyələşdirmə Azərbaycanda ofşor Şahdəniz qaz-kondensat yatağının ("ŞD") inkişafı ilə bağlı Lukoil Overseas Şahdəniz Ltd ("LŞD") şirkətinə Bank tərəfindən ayrılan vəsaitlərin əvvəlcədən planlaşdırılmış artımına yönəlib. LŞD ŞD-də 10% paya malikdir.

Maliyyələşdirilmə birinci mərhələsi ərzində yatağın istismarının genişləndirilməsi və mövcud terminal və platforma da daxil olmaqla, daha qabaqcıl texnologiyaların tətbiqi üçün istifadə olunmalıdır.

## Keçid Təsiri

Təklif olunan layihənin potentsial keçid təsiri region üçün unikal olan yeni texnologiyaların, bacarıq və biliklərin əhəmiyyətli şəkildə təqdim olunmasın ilə bağlıdır. Layihə, həmçinin, Azərbaycanın upstream qaz bazarında daha geniş mülkiyyətçiliyi dəstəkləyir.

## Müştəri

LŞD Lukoil Overseas şirkətinin 100% törəmə şirkətidir. Lukoil Overseas şirkəti Rusiyadan kənarda kəşfiyyat və hasilat layihələrində Lukoil-ın iştirakını idarə edən holdinqdir. Azərbaycanda Lukoil qrupu müxtəlif neft və qaz fəaliyyətləri ilə məşğul olur. Böyük Britaniyanın BP şirkəti ŞD upstream inkişafı üzrə operator şirkətdir.

## AYİB-nın Maliyyəsi

200 milyon ABŞ Dolları həcmində Baş Kredit (sindikatlaşdırılmış deyil).

## Layihənin Dəyəri

Toplam ŞD birinci mərhələsinin genişləndirilməsi və müasirləşdirilməsi layihəsinin smetası 2128 milyon ABŞ dolları təşkil edir. LŞD-nin mərhələ 1 üzrə layihə smetası 212.8 milyon ABŞ dollarına bərabərdir.

## Ətraf Mühitə Təsiri

Ətraf mühitə təsirlə əlaqədar müvafiq ekspertizanın Şah Dəniz yatağı üzrə əsas layihə çərçivəsində artıq keçirilməsi səbəbindən, sözügedən layihəyə C kateqoriyası təyin olunmuşdur.

Cari layihə üçün əlavə maliyyə üzrə məhdudiyyətlərin mövcudluğu və AYİB-nın maliyyəsi yönələcək biznes fəaliyyətin artıq əsas layihənin qiymətləndirməsində əhatə olunması səbəbindən, bu layihə çərçivəsində ətraf mühitə təsir üzrə əlavə ekspertizanın keçirilməsi tələb olunmur.

Bu ofşor qaz hasilatı layihəsinin əsas qiymətləndirilməsi Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi və hərtərəfli ictimai məsləhətləşmələri daxil edən AÇG, BTC, Şahdəniz və CQBK neft və qaz hasilatı və nəqli üzrə geniş qiymətləndirilmənin bir hissəsi kimi başa çatdırılmışdır.

ƏMSSTQ, ƏMSTP və digər sənədlərlə bu ünvanda (**here**) və ya AYİB-nın İnternet səhifəsində tanış ola bilərsiniz. Qeyd olunduğu kimi, layihənin Operatoru il ərzində layihə üzrə tədbirləri sənədləşdirib və ƏMST üzrə icra göstəricilərini ümumiləşdirib, illik təfərrüatlı ƏMST hesabatını hazırlayır. Bundan əlavə, Şirkət biznes fəaliyyəti və nailiyyətlərini əks etdirən aylıq hesabatlarını AYİB-na təqdim edir. İnternet səhifədə təqdim olunan hesabatlarda göstərildiyi kimi, bu layihə yüksək səviyyədə şəffaflığa malikdir, beynəlxalq və milli standartlara ciddi şəkildə sadiqdir. Neft və qaz layihələri üzrə çoxsaylı kənar şirkətlər və QHT-lər tərəfindən keçirilən audit hesabatlarının sürətləri də mövcuddur.

## Texniki Əməkdaşlıq

Mövcud deyil.

## Şirkətlə əlaqə

Aleksandr Karasev

JSC Lukoil

Sretenskiy bulvar, 11

Moskva, 101000

Rusiya Federasiyası

E-poçt: **mail@lukoil-overseas.com**

və yaxud

X-m Kseniya Solodnikova

AYİB-nın Aparıcı Bank Əməkdaşı

Tel: +4957871111

**Biznes İmkanlar**

Biznez imkanlar və yaxud satınalmalarla əlaqədar müştəri şirkətə müraciət edin.

**Ümumi müraciətlər**

Satınalmalardan kənar AYİB-nın layihələri üzrə müraciətlər üçün:

Tel: +44 20 7338 7168; Faks: +44 20 7338 7380;

E-poçt: **projectenquiries@ebrd.com**

**İcmaiyyəti Məlumatlandırma Siyasəti (İMS)**

İMS AYİB tərəfindən məlumatların açıqlanması və AYİB-nın strategiyaları, siyasəti və əməliyyatları haqqında daha yaxşı maariflındirmə və anlaşmanı təşviq etmək üçün müvafiq maraqlı tərəflər ilə məsləhətləşmələr prosesini müəyyən edir. İMS-nin tam mətni **Text of the PIP**

**Layihənin Şikayət Mexanizmi (LŞM)**

Bankın maliyyələşdirdiyi layihələrin ehtimala əsasən törətdiyi və yaxud törədə biləcəyi ziyan haqqında bir və ya bir neçə fiziki şəxs, və yaxud təşkilat tərəfindən təqdim olunan şikayətlərə müstəqil baxış imkanı təmin etmək üçün AYİB Layihənin Şikayət Mexanizmini (PCM) təsis etmişdir. İSM-ı idarə edən Qayda və Prosedurlar bu mənbədən əldə oluna bilər: **www.ebrd.com/downloads/integrity/pcmrules.pdf**, və Rus dilində olan

sürətini bu mənbədən əldə edə bilərsiniz: **http://www.ebrd.com/downloads/integrity/pcmrulesr.pdf**

İSM çərçivəsində istənilən şikayət AYİB tərəfindən layihə üzrə yekun maliyyə ayırmasından sonrakı 12 ay ərzində təqdim olunmalıdır. Şikayətin hansı müddət ərzində təqdim olunması ilə əlaqədar dəqiq məlumatınız olmadığı təqdidə, siz kömək üçün İSM üzrə məsul şəxsə (**pcm@ebrd.com**) və yaxud AYİB-nın Rezident Nümayəndəliyindəki müvafiq əməkdaşa müraciət edə bilərsiniz.

Layihənin Xülasə Sənədləri AYİB-nın Direktoral Şurası tərəfindən keçirilən baxışdan əvvəl tərtib olunmuşdur. Layihənin Xülasə Sənədləri açıqlanandan sonra layihənin təfərrüatları dəyişə bilər. Layihənin Xülasə Sənədləri AYİB-nın siyasətini təmsil edən bir sənəd kimi qiymətləndirilə biməz.

Son yenilənmə tarixi; 11 noyabr 2013